**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

____________

03.06.2022-ci il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Tikintiyə icazələrin verilməsi" işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı

| Sıra №-si | Tematik sahələr və ya indikatorlar | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|
| 1. | Tikintiyə icazələrin verilməsi | **Tikintiyə və istismara icazələrin verilməsi sahəsində xidmətlərin rəqəmsallaşdırılması və "Bir pəncərə" e-sisteminin funksionallığının təkmilləşdirilməsi:** | | | |
| | | 1.1. Tikinti fəaliyyəti ilə bağlı xidmətləri, habelə informativ və statistik xarakterli məlumatları özündə əks etdirən "e-tikinti.gov.az" portalının yaradılması; | 30.09.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | K.Xanlarov, T.Yəhyayev |
| | | 1.2. "Bir pəncərə" e-sisteminin funksional diaqnostikasının aparılması və aşkar olunan çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanaraq ümumi hesabatla birlikdə, eləcə də sistemin stres-testinin nəticələrinin il ərzində 2 dəfə Komissiyaya təqdim olunması; | 15.07.2022<br>30.09.2022 | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA) (Elektron Hökumətin İnkişafı Mərkəzi) | A.Qurbanlı, V.Məmmədov |
| | | 1.3. "Bir pəncərə" e-sisteminin tikintiyə icazələrin verilməsi icraatında iştirak edən qurumların daxili elektron sənəd dövriyyəsi və ya mövcud sistemi ilə əlaqələndirilməsi işlərinin yekunlaşdırılması; | 30.11.2022 | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi (FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi)), Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi), "Azəriqaz" İB | A.Qurbanlı, müvafiq fəaliyyət sahələri üzrə işçi qrupun digər üzvləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1.4. “Bir pəncərə” e-sistemində torpaqayırma modulunun yaradılması, şəhərsalma əsaslandırılması və ekspertizası tələb olunan obyektlərin tikintisi ilə bağlı icazə modullarının təkmilləşdirilməsi üzrə texniki tədbirlərin icrasının davam etdirilməsi (sistemin texniki imkanlarının genişləndirilməsi, istifadəçi rahatlığının artırılması); | 30.12.2022 (sonrakı icra davam etdirilməklə) | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi) | A.Qurbanlı, V.Məmmədov, K.Xanlarov, L.Əkbərova, Z.Rzayeva |
| | | 1.5. “Bir pəncərə” e-sisteminin ekspertizası tələb olunan obyektlərin tikintisi ilə bağlı icazə modulundan istifadənin genişləndirilməsi üçün (ekspertizası tələb olunan obyektlər üzrə icazələrin ümumi sayında e-sistem vasitəsilə verilən icazələrin xüsusi çəkisinin 30%-ə çatdırılması) zəruri tədbirlərin görülməsi; | 30.07.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), yerli icra hakimiyyəti orqanları | K.Xanlarov, Z.Rzayeva, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri |
| | | 1.6. “Bir pəncərə” e-sisteminin tətbiqinin genişləndirilməsi üçün (ekspertizası tələb olunmayan obyektlər üzrə müraciətlərin və məlumatlandırma icraatı üzrə müraciətlərin tərkibində e-sistem vasitəsilə edilən müraciətlərin xüsusi çəkisinin 70%-ə çatdırılması) zəruri tədbirlərin görülməsi; | 30.11.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | K.Xanlarov, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri |
| | | 1.7. “Bir pəncərə” e-sisteminin şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin tərkib hissəsi olan “Tikintilərin Dövlət Reyestri” sistemi ilə inteqrasiyasının təmin edilməsi; | 30.11.2022 | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | A.Qurbanlı, V.Məmmədov, T.Yəhyayev |
| | | 1.8. Tikinti niyyətinin həyata keçiriləcəyi tikinti ərazisi barədə əvvəlcədən məlumatlılığın təmin olunması məqsədilə Bakı şəhərinin ərazisində olan torpaq sahələri barədə məlumatların (kateqoriyası (məqsədli təyinatı), mülkiyyət növü, hüquq növü, döngə nöqtələrinin koordinatları) şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminə inteqrasiyası; | 30.11.2022 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | L.Əkbərova, T.Yəhyayev |
| | | 1.9. Tikinti niyyətinin həyata keçiriləcəyi tikinti ərazisi barədə əvvəlcədən məlumatlılığın təmin olunması məqsədilə Bakı şəhərinin ərazisində olan yeraltı və yerüstü elektrik təchizatı xətlərinə, habelə elektrik qurğularına dair koordinat sisteminə bağlanmış elektron məlumat bazasının yaradılması və Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminə inteqrasiyası; | 30.12.2022 (sonrakı icra davam etdirilməklə) | “Azərişıq” ASC, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | E.Rüstəmli, T.Yəhyayev |
| | | 1.10. Tikinti niyyətinin həyata keçiriləcəyi tikinti ərazisi barədə əvvəlcədən məlumatlılığın təmin olunması məqsədilə Bakı şəhərinin ərazisində olan yeraltı və yerüstü qaz təchizatı xətlərinə və qurğularına dair koordinat sisteminə bağlanmış elektron məlumat bazasının yaradılması və Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminə inteqrasiyası; | 30.11.2022 | “Azəriqaz” İB, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | M.Cəbrayılov, T.Yəhyayev |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1.11. Tikinti niyyətinin həyata keçiriləcəyi tikinti ərazisi barədə əvvəlcədən məlumatlılığın təmin olunması məqsədilə Bakı şəhərinin ərazisində olan yeraltı və yerüstü su təchizatı xətlərinə və qurğularına dair koordinat sisteminə bağlanmış elektron məlumat bazasının yaradılması və Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminə inteqrasiyası; | 30.11.2022 | "Azərsu" ASC, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | N.Quliyev, T.Yəhyayev |
| | | 1.12. "Bir pəncərə" e-sisteminin "Elektron hökumət" (E-Gov) və "Lisenziyalar və icazələr" portallarına inteqrasiyasının təmin edilməsi; | 31.08.2022 | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), İqtisadiyyat Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | A.Qurbanlı, V.Məmmədov, T.Yəhyayev |
| | | 1.13. "Bir pəncərə" e-sistemi üzərindən edilən ödənişlərin Hökumət Ödəniş Portalı vasitəsilə təmin edilməsi; | 31.08.2022 | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), Mərkəzi Bank | A.Qurbanlı, V. Məmmədov |
| | | 1.14. Vətəndaşlara verilmiş elektron ünvan arayışları barədə məlumatların "Bir pəncərə" e-sisteminə inteqrasiyasının təmin edilməsi; | 30.11.2022 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | L.Əkbərova, A.Qurbanlı, K.Xanlarov |
| | | 1.15. İcazə icraatı və məlumatlandırma icraatı üzrə verilmiş yekun sənədlər əsasında tikinti obyekti üçün çıxarışların əldə edilməsinin sadələşdirilməsi və yekun sənədlərin daşınmaz əmlakın dövlət reyestrini aparan quruma göndərilməsi məqsədilə həmin qurumun "Bir pəncərə" e-sisteminə qoşulması və inteqrasiyasının təmin edilməsi istiqamətində tədbirlərin görülməsi. | 30.12.2022 (sonrakı icra davam etdirilməklə) | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | A.Qurbanlı, L.Əkbərova, K.Xanlarov |
| **2.** | | **Tikintiyə və istismara icazələrin verilməsi və tikintidə keyfiyyətə nəzarət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi:** | | | |
| | | 2.1. Tikintiyə icazə icraatı çərçivəsində rəylərin və mühəndis-kommunikasiya təminatı ilə bağlı texniki şərtlərin (o cümlədən "Bir pəncərə" e-sistemi vasitəsilə) qanunvericiliklə müəyyən edilmiş tələblər və müddət çərçivəsində verilməsinin təmin edilməsi və yarımillik ərzində aidiyyəti üzrə verilmiş rəylər və texniki şərtlər (daxilolma və icra olunma müddətləri, habelə gecikmə səbəbləri göstərilməklə) barədə məlumatların ***hər bir aidiyyəti qurum*** tərəfindən Komissiyaya təqdim olunması; | Hər 6 aydan bir | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi), FHN (Dövlət Yanğın Nəzarəti Xidməti, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsi), Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, "Azərsu" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İB | M.Əliyev, M.Hüseynov, Z.Rzayeva, aidiyyəti üzrə rəy və texniki şərtlərin verilməsinə məsul digər qurumların rəhbərləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2.2. Qanunsuz tikintilərlə mübarizə, şəhərsalma və tikintiyə dair dövlət nəzarəti, tikinti obyekti üzrə məsuliyyət və sığorta rejimləri sahəsində beynəlxalq təcrübənin araşdırılması, zərurət olduğu təqdirdə qanunvericilik sahəsində təkmilləşmələrin aparılmasına dair təkliflərin hazırlanması və işçi qrupun iclasında müzakirə edilməklə nəticələri üzrə müvafiq tədbirlərin görülməsi; | 30.09.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Ç.Kərimzadə, Z.Rzayeva, L.Əkbərova |
| | | 2.3. Binaların estetik görünüşünün qorunması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi; | 30.11.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi) | Ç.Kərimzadə, Z.Rzayeva |
| | | 2.4. Tikinti və istismar üçün icazələrin və məlumatlandırma icraatı üzrə razılaşmaların yalnız elektron sistem vasitəsilə verilməsi tələbinin qanunvericilikdə təsbit edilməsi üzrə zəruri tədbirlərin görülməsi; | 30.09.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi) | Ç.Kərimzadə, Z.Rzayeva |
| | | 2.5. Enerji səmərəliliyinin artırılması və ekoloji mühitin çirklənməsinin qarşısının alınması məqsədilə qanunvericilikdə binalarda mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin tətbiqini nəzərdə tutan müvafiq təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi. | 30.11.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), Energetika Nazirliyi | Ç.Kərimzadə, M.Əliyev, Z.Rzayeva, Ə.Həsənov |
| **3.** | | **Tikinti və istismara icazələrin verilməsi üzrə aparılan islahatlarla bağlı kommunikasiya əlaqələrinin qurulması və məlumatlandırma işinin təşkili:** | | | |
| | | 3.1. Həyata keçirilən islahatlarla bağlı aidiyyəti qurumlarla mərkəzləşdirilmiş şəkildə kommunikasiyanın aparılması üçün qurumlararası əlaqələndirmənin təşkili və bu istiqamətdə görülmüş işlər barədə hesabatların hazırlanaraq işçi qrupun iclaslarında müzakirəsi; | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | E.Sultanova, müvafiq fəaliyyət sahələri üzrə işçi qrupun digər üzvləri |
| | | 3.2. “Bir pəncərə” e-sisteminin və tikinti icraatında iştirak edən qurumların rəsmi internet səhifələrinin, sosial şəbəkə hesablarının (yerli icra hakimiyyətlərinin rəsmi internet səhifələrində sözügedən sistemə keçidi təmin edən funksional imkanların yaradılması və tətbiqinin genişləndirilməsi, eləcə də tikinti icraatına dair qanunvericilik aktlarının yerləşdirilməsi və mütəmadi olaraq yenilənməsinə dair vəziyyət daxil olmaqla) monitorinqinin aparılması və bu məlumatların tərkibi və keyfiyyətinə dair hesabatların və təkliflərin işçi qrupun iclaslarında müzakirəsi; | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, (“Ekvita” MMC cəlb edilməklə) | F.Cəbrayılova, E.Sultanova |
| | | 3.3. Tikinti və istismar üçün müraciətlər barədə, eləcə də verilmiş icazələrə dair statistik göstəriciləri əks etdirən məlumatın hazırlanması və aidiyyəti qurumların rəsmi internet səhifəsində yerləşdirilməsi; | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları | E.Sultanova, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3.4. “Bir pəncərə” e-sisteminin çağrı mərkəzinin yaradılması; | 30.11.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | E.Sultanova, K.Xanlarov |
| | | 3.5. “Bir pəncərə” e-sistemi barədə kiçik ölçülü məlumat xarakterli broşürlərin hazırlanması və KOBİA, DOST, DAİM və “ASAN xidmət” mərkəzlərində paylanması və ya yerləşdirilməsi; | 30.08.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)), VXSİDA, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (DOST Agentliyi), Kənd Təsərrüfatı Nazirliyi (DAİM) | E.Sultanova |
| | | 3.6. “Bir pəncərə” e-sisteminin aparıcı televiziya kanallarında təbliğ edilməsi üçün qısa video-çarxların hazırlanması, televiziya kanallarında, xəbər portallarında, aidiyyəti qurumların rəsmi internet səhifələrində, sosial şəbəkə hesablarında, “ASAN xidmət” mərkəzlərində, KOBİA və DOST Agentliyində olan monitorlarda yayımlanması; | 31.07.2022 (video-çarxların hazırlanması)<br><br>2022-ci ilin avqust-dekabr ayları ərzində (mütəmadi yayımlanması) | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, İqtisadiyyat Nazirliyi (KOBİA), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (DOST Agentliyi), VXSİDA, Dövlət Reklam Agentliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC (AzTV), Dövlət İnformasiya Agentliyi (AzərTac) | E.Sultanova |
| | | 3.7. “Bir pəncərə” e-sistemi ilə bağlı reportajların hazırlanaraq TV xəbər verilişlərində və internet media portallarında yayımlanması (AzTV və İctimai TV-də azı 2 reportaj olmaqla) və həmin reportajların video-çarxlarının aidiyyəti qurumların internet səhifələrində yerləşdirilməsi; | İyul-noyabr 2022-ci il | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, AzTV, İctimai TV (digər televiziya kanalları cəlb edilməklə) | E.Sultanova, tikinti icraatında iştirak edən və işçi qrupda təmsil olunan qurumların mütəxəssislə-rinin iştirakı ilə |
| | | 3.8. Tikinti şirkətləri, tikinti sahəsində çalışan ekspertlər, layihə təşkilatları, aparıcı hüquq şirkətləri və ictimai birliklər/biznes assosiasiyalarının nümayəndələrinin iştirakı ilə “Bir pəncərə” e-sisteminin istifadəsi, habelə tikinti sektorunun fəaliyyəti barədə rübdə bir dəfə müzakirələrin (diskussiyaların) təşkil edilməsi; | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, KOBİA), “Azərişıq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | E.Sultanova, Z.Rzayeva, müvafiq fəaliyyət sahələri üzrə işçi qrupun digər üzvləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3.9. Şəhərsalma və tikinti qanunvericiliyi, eləcə də tikinti icraatı barədə silsilə (rübdə 1 dəfə) radio verilişlərinin hazırlanması və yayımlanması; | İl ərzində | VXSİDA, İctimai TV, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), “Azərişıq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi) | E.Sultanova, tikinti icraatında iştirak edən işçi qrupda təmsil olunan qurumların mütəxəssisləri |
| | | 3.10. Yerli icra hakimiyyəti orqanlarının məsul şəxsləri və tikintiyə icazə verilməsində iştirakçı olan səlahiyyətli əməkdaşları üçün “Bir pəncərə” e-sisteminin ölkə üzrə tətbiqinin genişləndirilməsinə dair müvafiq maarifləndirici tədbirlərin keçirilməsi; | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), yerli icra hakimiyyəti orqanları | K.Xanlarov, Z.Rzayeva, L.Əkbərova, yerli icra hakimiyyəti orqanlarının aidiyyəti əməkdaşları |
| | | 3.11. Tikintiyə icazələrin verilməsi işi çərçivəsində təqdim edilən layihələrin keyfiyyətinin və layihələri hazırlayan şəxslərin peşəkarlıq səviyyəsinin artırılması üçün müvafiq seminarların keçirilməsi; | Hər rüb | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi, Dövlət Yanğın Nəzarəti Xidməti), Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi), Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Memarlıq və İnşaat Universiteti (AZMİU) | Ç.Kərimzadə, işçi qrupda təmsil olunan qurumların mütəxəssisləri |
| | | 3.12. “Bir pəncərə” e-sistemi ilə bağlı konsultasiya həyata keçirən mütəxəssislərin hazırlanması və sertifikatlaşdırılması proqramı”nın metodologiyasının və kurikulumunun hazırlanması; | 30.08.2022 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, FHN (Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), “Azərişıq” ASC, “Azərsu” ASC, “Azəriqaz” İB, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi) | E.Sultanova |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3.13. İcazə icraatı və məlumatlandırma icraatı zamanı qurumlarla məlumat mübadiləsinin operativliyinin təmin olunması məqsədilə “Bir pəncərə” e-sistemində “Canlı çat”ın yaradılması; | 30.08.2022 | VXSİDA (Elektron Hökumətin İnkişafı Mərkəzi), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | A.Qurbanlı, V.Məmmədov K.Xanlarov |
| | | 3.14. Tikintiyə və istismara icazə prosedurlarının icrası sahəsində mütəmadi olaraq müstəqil məsləhətçi cəlb etməklə fokus qrupları (sahibkarlar, tikinti ekspertləri, konsaltinq şirkətləri və digər maraqlı tərəflər) arasında (azı 100 şirkətin və 200 fiziki şəxsin iştirakı ilə) sorğuların keçirilməsi və bu sahədə diaqnostikaların aparılması, nəticələri üzrə təkmilləşməni nəzərdə tutan təkliflərin hesabatla birlikdə Komissiyaya təqdim edilməsi. | İl ərzində iki dəfə (iyun və dekabr ayları) | İqtisadiyyat Nazirliyi (KOBİA), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | E.Hüseynli |
| ***Əlverişli Biznes Mühiti (Business Enabling Environment)*** | | | | | |
| **4.** | **Bütün aidiyyəti indikatorlar** | Dünya Bankı Qrupunun yeni “Əlverişli biznes mühiti (Business Enabling Environment)” layihəsinin aidiyyəti komponentləri əsasında ilkin qiymətləndirmə, təhlil və diaqnostikanın aparılması, mümkün ən qısa müddətdə həm qanunvericilik, həm də inzibatçılıq sahəsində təkmilləşmələrin, habelə kommunikasiya tədbirlərinin həyata keçirilməsi, müvafiq sahələrdə elektron xidmətlərin tətbiqi və ya daha da təkmilləşdirilməsi, eləcə də görülmüş işlər barədə Komissiyaya məlumat verilməsi. | 15.07.2022 (diaqnostikanın aparılması)<br><br>01.10.2022 (təkmilləşmə tədbirlərinin icrası) | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>digər aidiyyəti qurumlar | Ç.Kərimzadə, işçi qrupun bütün üzvləri |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | |
| **5.** | **Bütün aidiyyəti indikatorlar** | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | Mütəmadi | İşçi qrupa daxil olan bütün qurumlar | İşçi qrupun bütün üzvləri |
| **6.** | **Bütün aidiyyəti indikatorlar** | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədəki faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | Mütəmadi | İşçi qrupa daxil olan bütün qurumlar | İşçi qrupun bütün üzvləri |